Meksika rəssamlarının “Miqrant ürək” ağrısı

Milli Azərbaycan Tarixi Muzeyində meksikalı rəssamların “Miqrant ürək” adlı sərgisi təşkil olunub.

Sərgi çərçivəsində nümayiş olunan əsərlər daha əvvəl Meksikanın müxtəlif bölgələrində, eləcə də ABŞ-ın Los-Anceles, Çikaqo, Dallas, Hyuston, Mayami və Nyu-York kimi iri şəhərlərində sənətsevərlərə təqdim edilib. Əsərlərin Bakıya gətirilməsi Azərbaycan sənət mühitinə yeni nəfəs qataraq mədəniyyətlərarası dialoqu daha da gücləndirir.

Qeyd edək ki, sərginin tərtibatı muzeyin beynəlxalq əlaqələr və ictimaiyyətlə iş şöbəsinin müdiri Zümrüd İsmayılovaya məxsusdur.

Zümrüd xanım sərgi haqqında XQ-yə müsahibə verərək deyib:

Bu sərgi Meksikanın ölkəmizdəki səfirliyi və Tarix Muzeyinin birgə təşkilatçılığı ilə həyata keçirilir. Burada ABŞ-da yaşayan 26 amerikalı, həmçinin hər iki millətin daşıyıcısı olan meksikalı və amerikalı rəssamların 40 əsəri sərgilənir.

Miqrasiya mövzusu sənət ilə birləşdirilərək, ilk dəfə Azərbaycanda – Tarix Muzeyində ziyarətçilərə təqdim olunur.

Şəkillərdə Meksikanın mədəni-tarixi məişəti, miqrantların düşüncələri və dünyagörüşləri əks olunub. Rəsmlərə baxdıqca, insan dərin fəlsəfi düşüncələrə dalır və Meksikanın mədəni-tarixi həyatı ilə daha yaxından tanış olmaq imkanı qazanır. Sərgi fevralın 22-dək davam edəcək. Ziyarətçilərimizi sərgini izləməyə dəvət edirik.

Fidan SALMAN
XQ

Xalq qəzeti.- 2025.- 21 fevral (№ 38).- S.10.